Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2024-cü il
“ 22 ” noyabr tarixli
491 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Azərbaycan Respublikasında sektorlar üzrə strateji planların hazırlanması**

**QAYDASI**

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası”nın 5.7-ci bəndinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasında sektorlar üzrə strateji planların hazırlanmasının ümumi normalarını müəyyən edir.

1.2. Bu Qaydanın məqsədi sektorlar üzrə strateji planların hazırlanması prosesinin əsas mərhələlərini, həmin planların strukturunu, onların icrası üzrə hesabatlılığı və monitorinqi müəyyən etməkdir.

1.3. Bu Qaydada istifadə olunan anlayışlar Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası”nda və digər normativ hüquqi aktlarla müəyyən edilmiş mənaları ifadə edir.

## 2. Sektor üzrə strateji planın strukturu

2.1. Sektor üzrə strateji plan strateji və risk təhlillərinin nəticələri əsasında hazırlanan sektor üzrə ortamüddətli strateji siyasətdən və sektor üzrə icmallaşdırılmış büdcə planından ibarətdir.

2.2. Strateji təhlildə ortamüddətli dövrdə sektorun mövcud inkişaf səviyyəsi və bu sektorun fəaliyyətinə təsir edən daxili və xarici amillər nəzərə alınır. Daxili amillərə idarəetmənin vəziyyəti, resurs mövcudluğu (çatışmazlıqları), təşkilati struktur, texniki və məlumat sistemləri (bazaları), əməkdaşların potensialı və digər amillər, xarici amillərə isə iqtisadi şərait, qlobal rəqabət, demoqrafik və texnoloji trendlərə əsaslanan coğrafi şərait və qanunvericilik üzrə dəyişikliklər aid edilir.

2.3. Risk təhlilində sektor üzrə aparıcı qurum tərəfindən sektor qarşısında ortamüddətli dövrdə yarana biləcək, habelə sektor üzrə ortamüddətli hədəflərə nail olunmasına və maliyyə göstəricilərinə təsir edə biləcək risklər müəyyən edilir və onların qarşısının alınması (mitiqasiyası) və ya həmin təsirlərə uyğunlaşmanın (adaptasiyanın) təmin edilməsi üçün zəruri olan tədbirlər əks olunur.

2.4. Strateji və risk təhlillərinin nəticələri əsasında sektor üzrə aparıcı qurum tərəfindən hazırlanan sektor üzrə ortamüddətli strateji siyasət Azərbaycan Respublikası Prezidentinin aktları ilə təsdiq edilmiş sənədlərdə göstərilən qısa, orta və uzunmüddətli hədəflər, milli prioritetlər və ölkənin sosial-iqtisadi inkişaf konsepsiyası, eləcə də ortamüddətli büdcə çərçivəsi nəzərə alınmaqla müəyyən edilmiş sektor üzrə ortamüddətli strateji məqsəd və hədəfləri, həmin məqsəd və hədəflərə nail olmaq üçün ortamüddətli dövrdə həyata keçiriləcək proqramların (o cümlədən altproqramların) və tədbirlərin istiqamətlərini, həmin proqramlar üzrə ortamüddətli dövrün hər ilinin sonuna gözlənilən nəticələri, habelə sektorda fəaliyyəti olan təşkilatlara aparıcı qurumun tövsiyələrini özündə əks etdirir.

2.5. Sektor üzrə icmallaşdırılmış büdcə planı sektorda fəaliyyəti olan təşkilatların (o cümlədən aparıcı qurumun) icrasına məsul olduqları tədbirləri (layihələri), onların nəticə göstəricilərini və həmin göstəricilərə uyğun ortamüddətli dövr üzrə hər ilin sonunda əldə edilməsi hədəflənən nəticələri, habelə tədbirlərin (layihələrin) təsnifləşdirildiyi proqramları (o cümlədən altproqramları) ehtiva edir.

### 3. Sektor üzrə strateji planın hazırlanması

3.1. Sektor üzrə aparıcı qurum strateji və risk təhlilləri əsasında sektor üzrə ortamüddətli strateji siyasətini, o cümlədən investisiyayönümlü layihələrə dair təkliflərini hazırlayır və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (bundan sonra – İqtisadiyyat Nazirliyi) ilə razılaşdırmaqla cari il mayın 1-dək həmin sektorda fəaliyyəti olan təşkilatları məlumatlandırır, yaxud öz rəsmi internet səhifəsində dərc edir. Qaydanın 2.4-cü bəndində qeyd olunan strateji sənədlərdə və ya sosial-iqtisadi inkişaf konsepsiyasında dəyişiklik olduğu hallarda sektor üzrə aparıcı qurum sektor üzrə ortamüddətli strateji siyasətində dəyişikliklər edir.

3.2. Sektorda fəaliyyəti olan təşkilatlar həmin sektor üzrə ortamüddətli strateji siyasət nəzərə alınmaqla icrasına məsul olduqları büdcə planlarını Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (bundan sonra – Maliyyə Nazirliyi) "Sektorlar üzrə strateji planların və büdcə planlarının tərtibinə dair metodoloji Təlimat"ına (bundan sonra – Təlimat) uyğun tərtib edərək cari il iyulun 1-dək sektor üzrə aparıcı quruma təqdim edirlər.

3.3. Sektorda fəaliyyəti olan təşkilatlar (sektor üzrə aparıcı qurum daxil olmaqla) sektor üzrə həyata keçirilən proqramlara dair ortamüddətli dövr üçün müəyyən edilmiş strateji məqsəd və hədəflərə, o cümlədən altproqramlar üzrə müəyyən edildiyi təqdirdə aralıq hədəflərə nail olunması üçün bu Qaydanın 3.2-ci bəndində qeyd olunan Təlimata uyğun olaraq icrasına məsul olduqları tədbirlərin (layihələrin) maliyyələşdirilməsi üçün tələb olunan vəsaitlərə dair büdcə (o cümlədən yeni siyasət təşəbbüsləri üzrə) sifarişlərini maliyyələşmə mənbələri göstərilməklə hazırlayır, habelə tədbirlərin nəticələrini ölçməyə imkan verən nəticə göstəricilərini müəyyən etməklə hər il üçün əldə olunması hədəflənən nəticələri öz büdcə planlarında qeyd edirlər.

3.4. Sektor üzrə aparıcı qurum həmin sektorda fəaliyyəti olan təşkilatlar tərəfindən Təlimata uyğun hazırlanmış və təqdim olunmuş büdcə planlarını icmallaşdıraraq bu Qaydaya uyğun sektor üzrə strateji planı tərtib edir və cari il avqustun 1-dək Maliyyə Nazirliyinə və İqtisadiyyat Nazirliyinə təqdim edir.

3.5. Sektor üzrə strateji planda sektor üzrə aparıcı qurum tərəfindən müəyyən edilmiş hər bir proqram (o cümlədən altproqram) müəyyən tədbir və layihələrdən ibarət olan büdcə planı əsasında həyata keçirilir. Büdcə planı çərçivəsində icra olunan tədbir və layihələr üzrə nəticə göstəriciləri ölçülə bilən və real vəziyyəti əks etdirən meyarlar əsasında müəyyən edilir və müvafiq proqram (altproqram) üzrə müəyyən edilən strateji məqsədə və ya hədəfə (aralıq hədəfə) nail olunmasını təmin edir.

3.6. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 18.4-cü və 23-cü maddələrinə əsasən müvafiq olaraq cari il üçün təsdiq edilmiş büdcə ayırmaları həddində büdcə təsnifatına uyğun dövlət büdcəsinin xərcləri arasında yerdəyişmə və ya cari ilin dövlət büdcəsinə, habelə müvafiq sektorun fəaliyyətini tənzimləyən qanunvericilik aktlarında dəyişikliklər edildikdə, həmçinin sektor daxilində büdcə vəsaitinin tədbirlər (layihələr) arasında yerdəyişməsi baş verdikdə, eləcə də sektorun ehtiyat vəsaitindən və ya dövlət büdcəsində nəzərdə tutulmuş ehtiyat fondlarının vəsaitlərindən tədbirlərin (layihələrin) icrası üçün əlavə büdcə vəsaitləri ayrıldıqda, sektor üzrə aparıcı qurum sektorda fəaliyyəti olan təşkilatların rəyləri nəzərə alınmaqla və Maliyyə Nazirliyi ilə razılaşdırmaqla sektor üzrə strateji plana müvafiq dəyişikliklər edir.

3.7. Maliyyə Nazirliyi müvafiq sektorlarda fəaliyyəti olan təşkilatlardan, o cümlədən sektorlar üzrə aparıcı qurumlardan əlavə məlumat, sənəd və izahatlar da tələb edə bilər.

3.8. Maliyyə Nazirliyi sektorlar üzrə strateji planları cari il sentyabrın 5-dək Azərbaycan Respublikasının İqtisadi Şurasına (bundan sonra – İqtisadi Şura), sentyabrın 15-dək İqtisadi Şuranın təklif və tövsiyələri nəzərə alınmaqla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə (bundan sonra – Nazirlər Kabineti) təqdim edir.

## 4. Monitorinq və hesabatlılıq

4.1. Monitorinq və hesabatlılığın əsas məqsədləri sektorlar üzrə strateji planların icrası üzrə hesabatın və büdcə planlarının monitorinqinin nəticələrinin hazırlanması və təqdim edilməsi, habelə sektorlar üzrə strateji planlara daxil olan proqramların (altproqramların) həyata keçirilməsi və tədbirlərin (layihələrin) icrasında yaranmış problemləri, o cümlədən gözlənilən nəticələrə və ya hədəflərə (aralıq hədəflərə) nail olunmamasının səbəblərini təhlil etmək, onların həlli üçün zəruri tədbirlər görmək və tövsiyələr verməkdən ibarətdir.

4.2. Sektor üzrə aparıcı qurum sektor üzrə strateji plana daxil olan proqramlara (altproqramlara) dair müəyyən edilən məqsəd və hədəflərə (o cümlədən aralıq hədəflərə) nail olunmasına məsuldur və bu məqsədlə sektorda fəaliyyəti olan təşkilatların büdcə planlarının icrasına nəzarət edir.

4.3. Sektor üzrə aparıcı qurum bu Qaydanın 3.5-ci bəndində göstərilən tələblər yerinə yetirilmədiyi hallarda sektorda fəaliyyəti olan təşkilatlara aşkar edilmiş nöqsanların aradan qaldırılması, eləcə də fəaliyyətin sektor üzrə ortamüddətli strateji siyasətə uyğun təkmilləşdirilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi barədə tövsiyələr verə bilər.

4.4. Sektorda fəaliyyəti olan təşkilat (sektor üzrə aparıcı qurum daxil olmaqla) hazırladığı sektor üzrə büdcə planına daxil olan tədbirlərin (layihələrin) icrasına, həmin tədbirlər (layihələr) üzrə müəyyən edilmiş nəticə göstəricilərinə uyğun ortamüddətli dövrdə əldə edilməsi hədəflənən nəticələrə nail olunmasına məsuldur.

4.5. Sektorda fəaliyyəti olan təşkilat büdcə planının ötən il üzrə icrası barədə məlumatları Təlimatla müəyyən edilmiş qaydada cari il martın 1-dək həmin sektor üzrə aparıcı quruma təqdim edir.

4.6. Sektor üzrə aparıcı qurum sektor üzrə strateji plan çərçivəsində ötən il ərzində həyata keçirilən proqramlara (altproqramlara) dair müəyyən edilmiş hədəflərə (aralıq hədəflərə) nailolma səviyyəsini əks etdirən məlumatları İqtisadiyyat Nazirliyinə və Maliyyə Nazirliyinə, sektor üzrə icmallaşdırılmış büdcə planının ötən il üzrə icrası barədə məlumatları isə Təlimatla müəyyən edilmiş qaydada Maliyyə Nazirliyinə cari il aprelin 1-dək təqdim edir.

4.7. Maliyyə Nazirliyi tərəfindən sektorlar üzrə icmallaşdırılmış büdcə planlarının ötən il icrasının monitorinqi aparılan zaman, habelə bu Qaydanın 3.5-ci bəndində göstərilən tələblərin yerinə yetirilmədiyi və bu Qaydanın 4.2-ci və 4.4-cü bəndlərində göstərilənlər təmin olunmadığı hallarda aidiyyəti təşkilat tərəfindən əsaslandırıcı və izahedici sənədlər sorğuya əsasən Maliyyə Nazirliyinə təqdim edilir.

4.8. Sektor üzrə aparıcı qurum sektor üzrə strateji planın ötən il üzrə icrası barədə hesabatı Təlimatla müəyyən edilmiş qaydada cari il iyulun 15-dək İqtisadi Şuraya, iyulun 30-dək İqtisadi Şuranın təklif və tövsiyələri nəzərə alınmaqla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir və cari il avqustun 15-dək öz rəsmi internet səhifəsində dərc edir.

4.9. Maliyyə Nazirliyi sektor üzrə icmallaşdırılmış büdcə planının ötən il icrası üzrə monitorinq nəticələrini (müvafiq sektorda fəaliyyəti olan təşkilatlara, o cümlədən aparıcı quruma tövsiyələri ilə birlikdə) cari il iyulun 15-dək İqtisadi Şuraya, iyulun 30-dək İqtisadi Şuranın təklif və tövsiyələri nəzərə alınmaqla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir və cari il avqustun 15-dək öz rəsmi internet səhifəsində dərc edir.